**Kazus**

Faktlar: Ərizəçinin oğlu 2016-cı ilin may ayında küçədə baş verən davada ölümcül bıçaq zərbəsi nəticəsində ölmüşdür. Onu öldürən şəxs A. bir sıra ağır cinayətlərə görə əvvəllər məhkum olunmuşdu. Törətdiyi sonuncu cinayətə (həmin cinayət adam öldürmə cinayəti idi) görə ona ömürlük azadlıqdan məhrumetmə cəzası təyin olunmuşdu. Cəzasının bir hissəsini çəkdikdən sonra məhkumun müraciəti əsasında onun cəzası 26 il müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunmuşdur. Cəzasının 10 il 9 ayını cəza çəkdikdən sonra cəzaçəkmə müəssisənin rəhbəri məhkumluq vaxtı "yaxşı davranışına" görə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün məhkəməyə təqdimat vermişdir. Məhkəmə təqdimatı təmin etməmişdir. A.-nın həmin qərardan verdiyi şikayət apellyasiya məhkəməsi tərəfindən təmin edilmiş və A. 2016-cı ilin yanvar ayında cəzadan şərti olaraq vaxtindan əvvəl azad edilmişdir.

Ərizəçi ağır cinayətlərə görə məhkum olunmuş şəxsin cəzadan vaxtından əvvəl azad edilməsi ilə dövlətin onun oğlunun həyatını qorumağa dair pozitiv öhdəliyini pozduğunu iddia edir.

Fikriniz?

*Hazırladı: Günel Sevdimalıyeva*